*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*



**Heydər ƏLİYEV**


# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 17 iyun 2017-ci il № 46 (2163) Qiyməti 25 qəpik


## Azərbaycan Prezidenti İlham ƏLİYEV:

# Cocuq Mərcanlı kəndinin bərpası Azərbaycan Ordusunun uğurlu əks-hücum əməliyyatı nəticəsində mümkün olmuşdur

*İyunun 14-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cəbhəyanı bölgəyə səfər edib, yenidən qurulan Cocuq Mərcanlı kəndində görülən işlərlə tanış olub, sakinlərlə görüşüb.*

AZƏRTAC xəbər verir ki, Böyük Qayıdışın başlanğıcı olan Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinin bərpası başa çatıb. Ermənistan silahlı qüvvələri tərəfindən dağıdılan, lakin ordumuzun şücaəti sayəsində azad edilən, dövlətimizin başçısının xüsusi diqqəti ilə qısa müddətdə yenidən qurulan bu kənd indi öz möhtəşəmliyi ilə diqqət çəkir.

1993-cü ildə xalqın tələbi ilə yenidən hakimiyyətə gələrək Azərbaycanı məhv olmaq təhlükəsindən xilas edən ümummilli lider Heydər Əliyev tezliklə ölkədəki ağır vəziyyəti nəzarətə götürdü, ordu quruculuğu istiqamətində əhəmiyyətli addımlar atdı. Məhz Ulu Öndərin qətiyyəti və iradəsi sayəsində 1993-cü ilin dekabrından 1994-cü ilin yanvarına qədər davam edən və Azərbaycanın hərb tarixinə qızıl hərflərlə yazılmış uğurlu Horadiz əməliyyatı nəticəsində Füzuli rayonunun bu qəsəbəsi ilə yanaşı, 20 kəndi, həmçinin Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndi işğaldan azad edildi. Lakin təhlükəsizlik baxımından uzun müddət məskunlaşmanın qeyri-mümkün olduğu bu kənd 2016-cı ildə Prezident İlham Əliyevin tarixi xidmətləri sayəsində ikinci həyatını yaşamağa başladı. Buna ötən ilin aprelində qəhrəman Azərbaycan Ordusunun düşmənin təxribatına layiqli cavab verməsi və strateji əhəmiyyətli Lələtəpə yüksəkliyini azad etməsi nəticəsində nail olundu. Ağdərənin, Cəbrayılın, Füzulinin işğaldan azad olunmuş ərazilərində Azərbaycan bayrağı dalğalandı.

2016-cı ilin noyabrında Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Füzuli rayonu ərazisində ön xətdə yerləşən komanda idarəetmə məntəqəsində əməliyyat şəraiti ilə tanış olarkən işğal altında qalan torpaqlarımıza qayıdacağımıza bir daha əminlik yaratdı. Aprel döyüşlərində qazanılan qələbədən sonra Cocuq Mərcanlı kəndində təhlükəsiz yaşayışın bərpa edilməsinə, məcburi köçkünlərin öz ata-baba yurdlarına qaytarılmasına əlverişli şərait yarandı.



Dövlətimizin başçısının 2017-ci il yanvarın 24-də imzaladığı "Cəbrayıl rayonunun işğaldan azad edilmiş Cocuq Mərcanlı kəndinin bərpası haqqında" Sərəncamı cəbhəyanı ərazidə qısa zaman çərçivəsində böyük inşaat-bərpa işlərinin aparılması üçün əsas oldu. Ərazilərin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyin mütəxəssisləri qısa müddətdə 2 milyon 600 min kvadratmetr ərazinin minalardan, partlamamış döyüş sursatlarından təmizlənməsini həyata keçirdi, həmin ərazilər yaşayış üçün əlverişli vəziyyətə gətirildi. Dövlətimizin başçısının xüsusi diqqət və qayğısı sayəsində həyata keçirilən bərpa işlərinin birinci mərhələsi artıq başa çatıb və Cocuq Mərcanlı öz sakinlərini qəbul etməyə hazırdır. Dövlət səviyyəsində həyata keçirilən tədbirlər bir daha təsdiqləyir ki, Azərbaycan öz torpaqlarının işğalı ilə heç vaxt barışmayacaq, düşmən tapdağı altında qalan əzəli torpaqlarımızın azad olunması uğrunda son ana qədər mübarizə aparacaq.

Azərbaycan Prezidenti İlham Əliyevin Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinə səfəri yeni salınan kənd yolunun açılışı ilə başladı. İki hərəkət zolaqlı ümumi uzunluğu 9 kilometr, eni 12 metr olan yolun tikintisi Prezident İlham Əliyevin bu ilin fevralında imzaladığı "Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinə gedən avtomobil yolunun tikintisi ilə bağlı əlavə tədbirlər haqqında" Sərəncamına əsasən həyata keçirilib. Dövlətimizin başçısı yeni salınmış yolun rəmzi açılışını bildirən lenti kəsdi.

Birinci mərhələdə kənddə 10 hektar ərazidə 50 fərdi evin və müvafiq infrastrukturun tikintisi aparılıb. Tikilmiş evlərə Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndindən olan və əsasən Bakı şəhərində müvəqqəti məskunlaşmış məcburi köçkünlər köçürüləcək. Ümumi sahəsi 3850 kvadratmetr olan mənzillərin 20-si ikiotaqlı, 25-i üçotaqlı, 5-i isə dördotaqlıdır.

Prezident İlham Əliyevə məlumat verdilər ki, Məcburi Köçkünlərin Sosial İnkişaf Fondu tərəfindən görülən işlər nəticəsində kənddə küçələrdə işıqlandırma sistemi qurulub, su, qaz, telefon xətləri çəkilib, subartezian quyusu qazılıb, 100 kubmetrlik su anbarı inşa edilib. Yollara və səkilərə asfalt örtüyü salınıb, yaşıllaşdırma işləri aparılıb. Kənddə müasir standartlara cavab verən yeni yarımstansiya inşa edilib. Yeni Komplekt Transformator Məntəqəsi, həmçinin subartezian quyusuna xidmət edəcək transformator quraşdırılıb.

Bununla da Cocuq Mərcanlı qaçqın və məcburi köçkünlər üçün inşa edilmiş sayca 96-cı, məcburi köçkünlərin öz yurdlarına qaytarıldığı ilk yaşayış məskəni kimi tarixə düşüb.

Sonra Prezident İlham Əliyev Cocuq Mərcanlı kəndinin sakini Oqtay Həziyevin evində oldu. Səkkiz nəfərlik bu ailə təhlükəli olmasına baxmayaraq, 1994-cü ilin aprelindən kənddə yaşayır və bütün məcburi köçkünlərə nümunə olmaqla yanaşı, əsl vətənpərvərlik və fədakarlıq göstərir. Oqtay Həziyevin ailə üzvləri ilə söhbət edən Prezident İlham Əliyev dedi:

- Keçən ilin aprelində erməni hərbi təxribatının qarşısını alarkən Azərbaycan Ordusu uğurlu əks-hücum əməliyyatı keçirmiş və minlərlə hektar Azərbaycan torpağını işğalçılardan azad etmişdir. Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının minlərlə hektar torpağı azad edildi və bu gün on minlərlə hektar torpağa Azərbaycan Ordusu nəzarət edir. Lələtəpə yüksəkliyinin qaytarılması nəticəsində Cocuq Mərcanlıda təhlükəsiz şəraitdə yaşamaq mümkün oldu.

**(Ardı 2-ci səhifədə)**

## Azərbaycan Prezidenti İlham ƏLİYEV:

# Cocuq Mərcanlı kəndinin bərpası Azərbaycan Ordusunun uğurlu əks-hücum əməliyyatı nəticəsində mümkün olmuşdur

(Əvvəli 1-ci səhifədə)



Dövlət başçısı vurğuladı ki, cəmi 2 ay ərzində kəndin bir hissəsi bərpa edildi. Növbəti mərhələdə təqribən 100 əlavə ev, - bəlkə ondan da çox, - tibb məntəqəsi tikiləcək və iş yerlərinin yaradılması ilə bağlı əlavə tədbirlər görüləcəkdir. Bax, Cocuq Mərcanlı kəndinin tarixi bundan ibarətdir, bu, doğrudan da şanlı tarixdir.

Milli Qurtuluş Günü ərəfəsində görüşün baş tutduğunu, bu tarixi günün müasir Azərbaycan tarixində dönüş nöqtəsi olduğunu bildirən Prezident İlham Əliyev, həmçinin qeyd etdi: "Ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıtması nəticəsində Azərbaycanda sabitlik bərpa edildi, inkişafa start verildi və bugünkü Azərbaycan dünya miqyasında seçilən ölkələrdən biridir. Təəssüf ki, ulu öndər Heydər Əliyev müstəqilliyimizin ilk günlərindən Azərbaycanda rəhbərlikdə olmamışdır. Əgər olsaydı, bir qarış torpaq belə işğal altına düşməzdi".

İşğala baxmayaraq, bu gün Azərbaycanın inkişaf etdiyini, beynəlxalq arenada öz mövqelərini möhkəmləndirdiyini deyən ölkə rəhbəri Silahlı Qüvvələrimiz barədə yüksək fikirlər söylədi: "Biz hərbi sahədə böyük uğurlara nail olmuşuq, bu gün Azərbaycan Ordusu dünya miqyasında güclü ordular sırasındadır və aprel döyüşləri bunu bir daha göstərdi. Biz bunu bilirdik, Azərbaycan ictimaiyyəti də bilirdi. Ancaq aprel döyüşləri bunu əyani şəkildə bütün dünyaya və düşmənə göstərdi ki, bu gün Azərbaycan dövləti öz ərazi bütövlüyünü bərpa etməyə hazırdır, buna qadirdir".

Dövlət başçısı başqa yerdə yaşaya bilməyib kəndə qayıdaraq 20 ildən artıqdır ki, həyatını riskə ataraq təhlükə altında yaşamış, vətənpərvərlik nümunəsi göstərmiş Oqtay Həziyevə üzünü tutaraq buna görə onunla bütün Azərbaycan xalqının, fəxr etdiyini dedi və əlavə etdi: "Siz ən yüksək qiymətə layiqsiniz. Mən sizinlə fəxr edirəm".

Dövlətimizin başçısı birinci dərəcəli "Əmək" ordenini və evin orderini Oqtay Həziyevə təqdim etdi. Oqtay Həziyev təltifə görə dövlət başçısına minnətdarlığını bildirdi.

Bu gün Lələtəpədə və işğaldan azad edilmiş digər torpaqlarda Azərbaycan bayrağının dalğalandığını bildirən Prezident İlham Əliyev dedi: "İşğal böyük ədalətsizlikdir, beynəlxalq qanunların pozulması deməkdir. Ancaq əfsuslar olsun ki, dünyada ikili standartlar mövcuddur. BMT Təhlükəsizlik Şurası dörd qətnamə qəbul edib ki, erməni silahlı qüvvələri Azərbaycanın işğal edilmiş torpaqlarından dərhal və qeyd-şərtsiz çıxsın. Ermənistan buna əməl etmir. Bu qətnamələri qəbul edənlər də Ermənistanı məcbur etmir ki, o, buna əməl etsin. Bax, problem bundan ibarətdir".

Dövlət başçısı onu da vurğuladı ki, ermənilər Naxçıvanı da işğal etməyə çalışırdılar. Ancaq ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə orada bütün müdafiə tədbirləri quruldu və düşmən yerinə oturduldu. Əfsuslar olsun ki, o vaxtkı Azərbaycan rəhbərliyi ölkə miqyasında müdafiə məsələlərini düzgün təşkil edə bilmədi və torpaqlarımız işğal altına düşdü. Ancaq biz ölkəmizi, Ordumuzu gücləndiririk və ərazi bütövlüyümüzü bərpa edəcəyik. Bax, bu kənd - Cocuq Mərcanlı bunu əyani şəkildə sübut edir və təsdiqləyir.

Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev əvvəlcə müdafiə naziri Zakir Həsənov, Baş Qərargah rəisi Nəcməddin Sadıkov və birlik komandiri Mayis Bərxudarovla görüşdü.

Dövlətimizin başçısı yeni inşa olunmuş 96 şagird yerlik məktəblə də tanış oldu.

Məktəbdə Cəbrayılın işğaldan əvvəlki vəziyyəti, rayonun tanınmış xadimləri, ali məktəblərə yüksək balla qəbul olan məzunları, bu kənddə ermənilərin törətdikləri vandalizm, vəhşilik, 23 il doğma kəndini tərk etməyən Həziyevlər ailəsi, Prezident İlham Əliyevin tapşırığı ilə xarici KİV nümayəndələrinin, diplomatik korpusun və beynəlxalq təşkilatların rəhbərlərinin Cocuq Mərcanlı kəndinə səfərləri əks olunan fotostendlər kənd haqqında dolğun təəssürat yaradır. Məktəbin foyesində ümummilli lider Heydər Əliyevin büstü, dahi rəhbərin məcburi köçkünlərə diqqət və qayğısını əks etdirən fotostend qoyulub. Dəhlizdə rəşadətli Azərbaycan Ordusunun uğurlu aprel döyüşləri, Cocuq Mərcanlı kəndinin bərpadan əvvəlki və sonrakı görüntülərinin əks olunduğu stendlər yer alıb. Sinif otaqları, informatika, gənclərin çağırışaqədərki hazırlıq kabinələri, müəllimlər otağından ibarət məktəb binası lazımi inventar və avadanlıqlarla, istilik sistemi və internetlə təchiz edilib. Məktəbin həyətində qazanxana, voleybol və basketbol meydançaları yaradılıb, yaşıllıqlar salınıb.



Məktəbdə olarkən Prezident İlham Əliyev hərbi məktəblərin kursantlarının bir qrupu ilə görüşdü. Cocuq Mərcanlı kəndinin bərpası Azərbaycan Ordusunun uğurlu əks-hücum əməliyyatı nəticəsində mümkün olmuşdur deyən Prezident İlham Əliyev qeyd etdi ki, bu gün Azərbaycan Ordusu dünya miqyasında güclü ordular sırasındadır. "Ordu quruculuğu ölkəmizdə uğurla gedir. Ordu quruculuğu Azərbaycan rəhbərliyi üçün bir nömrəli prioritet məsələdir və son illər ərzində bu istiqamətdə böyük uğurlar əldə edilibdir. Ordumuzun maddi-texniki təminatı ən yüksək səviyyədədir, ordumuza lazım olan bütün ən müasir texnika, silah-sursat alınır, gətirilir, eyni zamanda, Azərbaycanda bir çox



hərbi təyinatlı məhsullar istehsal olunur. Ordumuzun döyüş qabiliyyəti artır, nizam-intizam yüksək səviyyədədir və bunun nəticəsidir ki, keçən ilin aprelində erməni silahlı təxribatına Azərbaycan Ordusu layiqli cavab vermişdir. Üç rayonun ərazilərinin bir hissəsi işğalçılardan azad edildi, o torpaqlarda Azərbaycan bayrağı ucaldıldı. Bu uğurlu əks-hücum əməliyyatı nəticəsində bu gün Cocuq Mərcanlı kəndinə yeni nəfəs verilir, həyat qayıdır, köçkünlər qayıdır".

Prezident İlham Əliyevin tapşırığına əsasən, Cocuq Mərcanlı kəndində Şuşa məscidinin bənzəri olan məscid tikilib. Bu müqəddəs ocağın inşası işğalçı Ermənistana və beynəlxalq aləmə bir mesajdır. Bu, bir daha dünyaya bəyan edir ki, Azərbaycan İslam dünyasının bir parçasıdır, öz tarixi keçmişinə sadiqdir. Cocuq Mərcanlıda Şuşa məscidinin bənzərinin inşası həm də o deməkdir ki, gün gələcək Şuşadakı məscid də bərpa ediləcək. Məscidin tikilməsi, həmçinin 2017-ci ilin ölkəmizdə "İslam Həmrəyliyi İli" elan edilməsinə dəyərli töhfədir.

Məsciddə yaradılan şəraitlə tanış olan dövlətimizin başçısına məlumat verildi ki, 50 sot ərazidə inşa edilən məscidin minarələrinin hündürlüyü 26 metrdir. Azərbaycan və Şərq memarlığının nadir incilərindən sayılan tarixi Şuşa məscidinin bənzəri olan bu dini ibadətgahda dindarlar üçün hər cür şərait yaradılıb.

Prezident İlham Əliyev məsciddə yaradılan şəraitlə tanış oldu, ona Qurani-Kərim hədiyyə edildi.

Sonra Prezident İlham Əliyev kəndin ərazisini gəzdi.

Qeyd edək ki, qaçqın və məcburi köçkünlərin sosial problemlərinin həlli üçün son 23 ildə 6 milyard manatdan çox vəsait sərf olunub. Ümumilikdə indiyədək 95 müasir qəsəbə və çoxmərtəbəli binalardan ibarət yaşayış kompleksi salınıb. Bunun da 95 faizi son 13 ildə inşa edilib. Görülən işlər nəticəsində 50 min ailənin və ya 250 min nəfər qaçqın və məcburi köçkünün mənzil şəraiti yaxşılaşdırılıb. Hazırda 80 min ailə və ya 340 min məcburi köçkünün mənzil şəraitinin yaxşılaşdırılmasına ehtiyac var. Bu il Tərtər rayonunda 1170 məcburi köçkün ailəsi üçün dördmərtəbəli 34 yaşayış binasının tikintisinin başa çatdırılması nəzərdə tutulur. Artıq Abşeron rayonunun Masazır və Ramana qəsəbələrində yaşayış binalarının tikintisinə başlanılıb, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın iştirakı ilə Qaradağ rayonunda 1026 məcburi köçkün ailəsi üçün yeni yaşayış kompleksinin təməli qoyulub.

**"Azərbaycan Ordusu"**

General-polkovnik Zakir HƏSƏNOV:

# Ordu qarşısında bir vəzifə dayanır - müharibəyə hazır olmaq və torpaqlarımızı işğaldan azad etmək



*İyunun 16-da Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin məzunları ilə görüş keçirildi.*

Tədbirdə əvvəlcə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi.

Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.

Müdafiə naziri general-polkovnik Zakir Həsənov məzunlar qarşısında çıxış edərək öncə onları ilk zabit rütbələri almaları münasibətilə təbrik etdi.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında son illər ordu quruculuğunda görülən mühüm işlərdən söhbət açan nazir qeyd etdi ki, Azərbaycan Ordusunun döyüş qabiliyyətinin daha da gücləndirilməsi dövlətin diqqət mərkəzində dayanan əsas məsələdir. "Prezident, Ali Baş Komandan cənab İlham Əliyevin tapşırığına əsasən ordu quruculuğunun bütün sahələrində, həmçinin hərbi təhsilin təkmilləşdirilməsi və hərbi hissələrin yüksək hazırlıqlı, peşəkar zabit kadrları ilə komplektləşdirilməsi istiqamətində mühüm addımlar atılır. Dövlətimizin orduya, əsgər və zabitlərə göstərdiyi diqqətin nəticəsidir ki, Azərbaycanda güclü və qüdrətli ordu formalaşıb. Ötən ilin aprel döyüşlərində bunun əyani şahidi olduq. Silahlı Qüvvələrimizin çox az bir hissəsi qısa vaxtda düşmənə sarsıdıcı zərbə endirdi və öz real gücünü bütün dünyaya nümayiş etdirdi".

Neçə illər öncə Sovet dönəmində hərbi məktəbin məzunu olduğunu və ilk zabit rütbəsi aldığı günü daim qürurla xatırladığını deyən Müdafiə nazirinin sözlərinə görə, bu hadisə hər bir gənc zabitin yaddaşında dərin kök atır və daim xoş hisslərlə xatırlanır. "Bu günümüzün gənc zabitləri hədsiz qürur hissi duyurlar ki, müstəqil dövlətimizdə doğma Vətənə xidmət etmək onlara nəsib olub. Zabit peşəsi Vətəni qorumaq peşəsi olduğu üçün həm şərəfli, həm də məsuliyyətli peşədir. Bu peşəni seçən gənclərimiz birdəfəlik dərk etməlidirlər ki, onların taleyi, ömür yolu Vətənə həsr olunub. Elə buna görə də hər biriniz seçdiyiniz müqəddəs peşədən şərəf duyaraq xalqa və dövlətə sədaqət nümayiş etdirməli, Vətənimizin qorunmasına layiqli töhfə verməlisiniz. Yaxşı dərk edin ki, bu gün qarşınızda ən müqəddəs vəzifə - torpaqlarımızın erməni işğalçılarından azad edilməsi dayanır. Hər an, hər dəqiqə bu vəzifəni yerinə yetirməyə hazır olmaq sizin əsas vəzifənizdir".

Müxtəlif qoşun bölmələrində xidmətə başlayacaq gənclərlə öz tövsiyələrini bölüşən general-polkovnik Zakir Həsənov qeyd etdi ki, hərbi kollektivdə xidmətə başlayan zabit yüksək mənəvi keyfiyyətlər nümayiş etdirməklə ilk gündən həm komandanlığın, həm də tabeliyindəki şəxsi heyətin hörmətini qazanmalıdır. Bundan ötrü kollektivdə şəxsi nümunə olmağın vacibliyini bildirən nazirin sözlərinə görə, gənc zabit yüksək hərbi biliklərə, nizam-intizama və liderlik xüsusiyyətlərinə malik olmalıdır ki, qısa bir vaxtda xidmət etdiyi kollektivin etibarını qazana bilsin. "Bu gün sizə baxanda bir vaxtlar taqım və bölük komandiri vəzifələrində xidmət etdiyim illəri xatırlayıram. Cəmi altı ay müddətində taqım komandiri, sonra isə digər hərbi vəzifələrdə Vətənimə, xalqıma məsuliyyət hissi ilə xidmət etdim və qarşıya qoyulan tapşırıqların öhdəsindən həmişə bacarıqla gəldim. Artıq nəticə göz qabağındadır, dövlətimiz tərəfindən mənə çox böyük məsuliyyətli vəzifə etibar olunub. Arzu edirəm ki, hər biriniz zabit peşəsində şərəflə xidmət edərək ən yüksək pillələrdə özünüzə yer tutasınız. Bu məqsədlə Vətənə, Dövlətə və Xalqa sədaqət nümayiş etdirməli, hərbi biliklərinizi və təcrübənizi daim artırmalı, öz üzərinizdə səylə çalışmalısınız. Ümumiyyətlə, hərbi qulluqçu dövlətə daim sadiq olmalı, Vətənə və torpağa sevgi, düşmənə isə nifrət hissi ilə xidmət etməlidir. Sizə göstərilən etimada cavab olaraq peşəkarlıq səviyyənizi durmadan artırmağı düşünməlisiniz".

Müdafiə naziri gənc zabitlərlə səmimi söhbətində bir vacib məqama toxunaraq qeyd etdi ki, tabeliyində olan əsgərlərin inam və etibarını qazana bilməyən komandir döyüşə ürəklə atıla bilməz. "Mən hesab edirəm ki, əsl komandir öz əsgərlərinin rəğbətini qazanmaq üçün bütün vacib şərtlərə əməl etməlidir. Hər bir əsgərə diqqət və qayğı göstərin, onların ailə vəziyyətini öyrənin və problemlərinə həssas yanaşın. Bu zaman əsgərlərdə də öz komandirinə güvənc hissi yaranır. Əsgər də komandirin diqqətindən ruhlanaraq daha nümunəvi xidmət etməyi düşünür, hər addımda intizamlı və özünə tələbkar olur. Xüsusən cəbhə bölgəsində xidmət etmək gənc zabitlərdən böyük bacarıq və səriştə tələb edir. Siz unutmayın ki, düşmənlə təmas xəttində xidmət edirsiniz, elə buna görə də şəxsi heyətə vətənpərvərlik ruhu, Vətən sevgisi aşılamaq əsas məqsədiniz olmalıdır. Əsgərlərin döyüş ruhunun artırılmasında təlimlərin gücündən bəhrələnməklə yanaşı, asudə vaxtın da səmərəli və mənalı təşkilinə fikir vermək vacibdir. Daim şəxsi heyətlə fərdi söhbətlər aparın, onların dünyagörüşünün formalaşmasında əhəmiyyətli tədbirlərdən istifadə edin. Yenə qeyd edirəm, ən başlıca şərt əsgərlərin inamını qazanmaqdır".



Son vaxtlar ordunun silahlanmasına daxil edilən müasir silah və texnikalardan, raketlərdən, artilleriya vasitələrindən danışan Müdafiə naziri qeyd etdi ki, onları da hərəkətə gətirən insan amilidir. "Gənc zabit tabeliyindəkilərə müasir silah-sursatın, hərbi texnikaların sirlərini aşılamaqla yanaşı, ilk öncə onların vətənpərvər döyüşçü kimi yetişməsinə nail olmalıdır. Unutmaq olmaz ki, ən müasir silahı belə idarə edən zabit, gizir, əsgər beynidir. Bu gün hər kəs Vətənimizin ərazi bütövlüyünü təmin etmək üçün üzərinə düşən vəzifənin məsuliyyətini dərindən dərk etməli, hər an düşmən üzərində mübarizəyə hazır olmalıdır".

Müdafiə naziri çıxışının sonunda əmin olduğunu bildirdi ki, Silahlı Qüvvələrimizin bütün şəxsi heyəti Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin qarşıya qoyduğu tapşırıqları yerinə yetirməyə hər an hazırdır və bu yolda öz bacarıqlarını əsirgəməyəcəkdir.

**Polkovnik-leytenant**
**Arif PƏNAHOV,**
**"Azərbaycan Ordusu"**

# Dünyagöz Xəstəxanalar Qrupunun xeyirxah missiyası

Qardaş Türkiyə Respublikasının Dünyagöz Xəstəxanalar Qrupu Azərbaycan Silahlı Qüvvələrində xeyirxah bir missiyaya start verdi. İyunun 16-da Dünyagöz Xəstəxanalar Qrupunun yeni layihəsinin təqdimetmə mərasimi keçirildi. Mərasimdə Müdafiə Nazirliyi Tibb Baş İdarəsinin rəisi tibb xidməti general-mayoru Natiq Əliyev, idarənin və Silahlı Qüvvələrin Baş Klinik Hospitalının həkim və mütəxəssisləri, Dünyagöz Xəstəxanalar Qrupunun Azərbaycan filialının həkim və tibb personalı iştirak edirdi.




21 ildir ki, qardaş Türkiyədə və onun hüdudlarından kənarda insanların sağlamlığı keşiyində dayanan Dünyagöz Xəstəxanalar Qrupu Azərbaycanda da öz filialını açıb. Qrupun avtomobil üzərində mobil göz klinikası isə 2004-cü ildən Türkiyədə fəaliyyət göstərir.

Ən müasir tibbi avadanlıqlarla təchiz edilmiş mobil klinika artıq 13 ildir ki, müasir tələblər səviyyəsində göz müayinəsi və müalicəsilə məşğul olur.

Müdafiə naziri general-polkovnik Zakir Həsənov Türkiyədə səfərdə olarkən belə bir mobil göz klinikasının ölkəmizdə də müayinələr keçirməsi barədə təşəbbüs göstərib. Dünyagöz Xəstəxanalar Qrupunun rəhbərliyi bu təklifi dəstəkləyib və avtomobil üzərində fəaliyyət göstərən mobil göz klinikası bu təşəbbüsə əsasən ölkəmizə göndərilib.

Dünyagöz Xəstəxanalar Qrupu yönətim kurulu baş direktorunun müavini Adəm Esgün açılış mərasimində çıxış edərək xeyirxah layihənin gerçəkləşdirilməsi münasibətilə tədbir iştirakçılarını təbrik etdi. O, Azərbaycan Müdafiə Nazirliyinin təşəbbüsü və dəstəyilə fəaliyyətə başlayan mobil göz klinikasının təmənnasız olaraq Silahlı Qüvvələrdə hərbi qulluqçuların gözlərini müayinə edəcəyini söylədi. "Dünyagöz Xəstəxanalar Qrupunun qardaş Azərbaycanda da müasir standartlara uyğun göz müayinələrini aparmasından qürur hissi keçiririk. Türkiyə Silahlı Qüvvələri Baş Qərargah rəisi ordu generalı Hulusi Akar və Azərbaycanın Müdafiə naziri general-polkovnik Zakir Həsənovun birgə təşəbbüsünün nəticəsində bu aksiya gerçəkləşdirilir. Bu layihəyə dəstək vermiş Müdafiə naziri general-polkovnik Zakir Həsənova minnətdarlığımı bildirirəm".

**(Ardı 8-ci səhifədə)**

# Milli qurtuluşdan başlayır bu yol!

## Horadizdə Müdafiə Nazirliyi ilə Füzuli rayon İcra hakimiyyətinin birgə təşkilatçılığı ilə kütləvi vətənpərvərlik tədbiri keçirilib



**Azərbaycan Prezidenti İlham ƏLİYEV:**

*Biz Horadiz şəhərinin timsalında dirçələn Azərbaycanı, qüdrətli Azərbaycan Ordusunu, ulu öndər Heydər Əliyevin siyasətini görürük.*

*Əvvəl-əvvəl çisəkləyən, az sonra damcı-damcı artan yaz yağışına ovuc açan yoxdu; bu gün kimsə yağış arzulamır. Elə bil yağsa, ürəkləri üşüdəcək...*

"Horadiz şəhər stadionunda keçiriləcək kütləvi vətənpərvərlik tədbirinin mahiyyəti təbiətə də, zamana da hökm etmək qüdrətindədi" - düşünürəm. Bu gözlənilməz düşüncələr tədbirin adından, adın mahiyyətindən rişələnir - yəqinindəyəm. Bir neçə saat keçəcək, gördüklərim gözlərimdən könlümə köçdükcə yəqinliyimdən bir duyum qədərincə məmnunluq duyacam...

Yaz yağışı tez kəsir. Bunu axın-axın stadiona tələsənlərə, yerişini yeyinlədənlərə təbiətin ehtiramı bilirəm; tarixlər yaratmış, tarixlər yaşatmış, tarixlər yaradacaq, tarixlər yaşadacaq Azərbaycanımızın dövlətçiliyinə ad olan tədbirdi...

Yağış kəssə də, seyrək buludlar hələ tam dağılmayıb. Hamı buludların dağılması istəyiylə göy üzünə baxır. Stadion boyunca düzülmüş əsgərlərin doğma baxışlarında buludlu ayamın açılacağı inamını görürük. Lələtəpəyə, el arasında deyildiyi kimi, Lələ İlahiyə sarı baxan bir ağbirçəyin pıçıltısı eşidiləndi: "Yağmayacaq, sürüşkən buluddu...". Az sonra nənə inancı da gerçəkləşir, əsgər inamı da; seyrəkləşən buludlar dağılır...

Müdafiə Nazirliyi və Füzuli rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı, Əməkdar İncəsənət xadimi Abdulla Qurbaninin ssenarisi və rejissorluğu ilə keçirilən "Milli qurtuluşdan başlanan yollar" tədbirinin mahiyyəti dövlətçilikdi, dövlətçiliyə sədaqətdi, Vətən sevgisidi, illərin o üzündən günümüzə gələn, günümüzdən sabahlarımıza çatacaq məhəbbətdi. İşığı ruhumuzdan düşdüyü üçün Milli Qurtuluş Günü bəşəriyyətin cığırdaşı olacaq...

"Mayəsi də, qayəsi də nur olan Azərbaycanımızın" (M.Araz) dövlətçiliyinə yönələn (yönəldilən) yellərin qanadları qırıldı həmin gün. Həmin gün bu nur qaranlıqları çiliklədi, qara niyyətlərin murazını gözündə qoydu; böyük tarixi şəxsiyyət Heydər Əliyev xalqın israrlı tələbiylə hakimiyyətə qayıtdı!..

Tarixlər yaradıb tarixləşdi Milli Qurtuluş Günü!..

1993-cü ilin 15 iyun günü sonrakı illərin başlanğıcı oldu; dövlətçiliyimizin yaşarlığı təmin edildi, dövlətin dayaqları, dövlətçilik təsisatları daha da möhkəmləndi...

Bugünkü tədbirin mahiyyəti də Abdulla Qurbaninin sözlərinə söykənib "Vətən!" - deyir, "Dövlət!" - deyir, "Millət!" - deyir, "Xalq!" - deyir, "Ordu!" - deyir. Heydər Əliyevin dediyi "Müstəqilliyimiz əbədidir, dönməzdir!" - kəlmələrini indi Vətən deyir, millət deyir, xalq deyir, ordu deyir.

Müdafiə nazirinin təsdiq etdiyi plana müvafiq olaraq keçirilən bu tədbiri "Sənə inanırıq, ölkə rəhbəri, Sənə güvənirik, Vətən əsgəri!", "Hər anımız Vətən desin!", "Hər kənddən bir ağsaqqal, hər səngərdən bir əsgər" tədbirlərinin mənəvi davamı bilirəm...

Müdafiə Nazirliyinin rəsmiləri, Füzuli rayon İcra Hakimiyyətinin rəhbərliyi və qonaqlar əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin abidəsini ziyarət edərək qarşısına gül dəstələri qoyurlar.

Ulu öndər Heydər Əliyevin və Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi ehtiramla yad edilir, Azərbaycan Respublikasının Dövlət Himni ifa olunur.

Aparıcılar (Abdulla Qurbani, Kəmalə Məmmədova) bu tədbirin niyə məhz Horadizdə keçirildiyinə kəlmə-kəlmə, misra-misra aydınlıq gətirir; Milli Qurtuluş Gününün işığının ilk zərrələri Horadizə düşüb - Azərbaycan əsgəri 1993-cü ilin dekabrında bu bölgədən "Heydər Əliyev uğrunda!" döyüşə atılıb, rəşadətlə döyüşüb, Horadiz, neçə-neçə kənd işğaldan azad edilib...

Müdafiə Nazirliyi Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin rəisi general-mayor Rasim Əliyev tədbir iştirakçılarını əlamətdar gün münasibətilə Müdafiə naziri general-polkovnik Zakir Həsənovun adından təbrik edir, xalqımızın böyük oğlu Heydər Əliyevin Azərbaycan xalqı və dövləti qarşısında misilsiz xidmətlərindən, ordu quruculuğundakı müstəsna fəaliyyətindən danışaraq böyük inamla bildirir ki, Heydər Əliyev ideyalarına həmişə sadiq olan Azərbaycan əsgəri Ali Baş Komandanımızın rəhbərliyi altında aprel döyüşlərindəki qələbəni təzələməyə hazırdır və işğal altında olan digər torpaqlarımız da xalq ilə ordunun birliyi, qələbəyə inamı ilə azad ediləcəkdir.

General-mayor R.Əliyev çıxışında 15 iyun - Milli Qurtuluş Gününü Azərbaycan dövlətçiliyinin qorunub saxlanılması günü kimi dəyərləndirir:

- Nəyi qoruduğunu bilən, Vətənə sədaqətlə xidmət edən əsgər güclü əsgərdi. Aprel döyüşlərini unutmuruq. Azərbaycan əsgəri düşməni yenə də səksəkədə saxlayır. Azərbaycan ordusunun inkişafı, bu səviyyədə formalaşması da Milli Qurtuluş Günündən başlayır. İnanıram ki, qaçqınlar, köçkünlər doğma ocaqlarına qayıdacaq, belə tədbirlər işğaldan azad edəcəyimiz ərazilərdə də keçiriləcəkdir.



Bu fikirlər mənə də, toplaşanlara da xatırladır ki, başlıca vəzifəsi dövlətçiliyi, dövləti qorumaq olan ordu, həm də mənəvi dəyərlərin keşiyindədi. Mənəvi dəyərlər deyir ki, xalqı xalq edən torpaqdı, torpaq - Vətən. Bu yol Vətən yoludu, Vətənin yoludu...

Füzuli rayon İcra Hakimiyyətinin başçısı Alı Alıyev çıxış edərək deyir ki, Horadiz şəhəri və rayonun 20-dən çox yaşayış məntəqəsi məhz Ulu Öndərimizin Azərbaycan hakimiyyətinə yenidən qayıdışı, bu cəbhə bölgəsinə səfəri zamanı qətiyyətli, inamverici, qürurverici çıxışları və əbədiyaşar Ali Baş Komandanın xeyir-duası ilə müqəddəs savaşa atılan Azərbaycan Ordusunun şücaəti nəticəsində azad edilmiş, Horadiz qəsəbəsinin xarabalıqları üzərində yenidən dirçələrək müasir yaşayış məntəqəsinə çevrilmişdir.

Möhtərəm Prezidentimiz İlham Əliyevin Sərəncamı ilə yenidən qurulmuş Horadiz qəsəbəsinə şəhər statusu verilmiş və şəhər bu gün daha da çiçəklənməkdə, inkişaf etməkdədir. İlham Əliyevin qeyd etdiyi kimi, biz Horadiz şəhərinin timsalında dirçələn Azərbaycanı, qüdrətli Azərbaycan Ordusunu, ulu öndər Heydər Əliyevin siyasətini görürük.

Ehtiyatda olan general-leytenant Yaşar Aydəmirov, general-mayor Mayis Bərxudarov, ehtiyatda olan polkovnik Şair Ramaldanov, Xocavənd rayon İcra Hakimiyyətinin başçısı Eyvaz Hüseynov tədbirin mahiyyətinin dövlətçiliyimizlə bağlı olduğundan qürurlandıqlarını, Azərbaycan əsgərinin Ali Baş Komandanın hər əmrinə hazır olduqlarını bildirir; "Bu inam xalqın inamıdı" - deyirlər.

Veteranların gəlişi ürəkləri titrədir. Bu birlik, bu inam yerəgöyə sığışmır. Veteranlar gözdolusu sıralara baxır. Heç biri illərin o üzündə qalmış gümrahlığa təəssüflənmir. Cəsarət görürlər sıralarda, qətiyyət görürlər. Yaşı doxsanı haqlayanın da, Qarabağ müharibəsi veteranlarının da, əlillərinin də baxışlarından dikələn sözsüz söhbət duyulandı: Qoruyun Vətəni! Biz ölkə rəhbərinə inanırıq, sizə güvənirik. Xalqa Lələtəpə, Bayraqtəpə qürurunu siz yaşatdınız. Böyük Qələbənin də sevincini yaşadacaqsınız!

Tamaşaçıların arasında hərbi səhra paltarı geyinmiş körpələri görüncə könlüm tellənir. "Görənlərin hamısı bu duyğuları yaşayır" - düşünürəm. Xəyalən onları da əsgərlərin sırasında təsəvvür edirəm. "Milli qurtuluşdan başlanan yollar" kütləvi vətənpərvərlik tədbiri onları da əsgərləşdirib. Bu yaşda uşaqların Vətən sevgisini coşdurmağa qadir olan tədbirə vətənpərvərlik dərsi demək suç deyil; ağrıacıları da xatırladır, yaşadılmalı (və yaşadılan!) tarixləri də. Xatırladır, tövsiyə edir, yaddaşlara hopdurur. "Sevin Vətəni!" - deyir "Milli qurtuluşdan başlanan yollar". "Bu yol sizin yolunuzdu. Bu yolu siz davam etdirəcəksiniz. Bu yol sizi Qarabağa aparacaq, bizi bu yolla Qarabağla siz qovuşduracaqsınız.." - deyir...



**(Ardı 5-ci səhifədə)**

# Milli qurtuluşdan başlayır bu yol!

## Horadizdə Müdafiə Nazirliyi ilə Füzuli rayon İcra hakimiyyətinin birgə təşkilatçılığı ilə kütləvi vətənpərvərlik tədbiri keçirilib

**(Əvvəli 4-cü səhifədə)**

"Horadiz halayı" bu gün üçün yazılıb. Bu gün ilk dəfə səsləndirilir; həm də belə bir gündə ilk dəfə eşidilən bu duyğusal bəstənin təqdimat günüdü...

Sözləri Abdulla Qurbaninin, musiqisi Azad Zahidindi. Ruhumuzun can ortağı olan şeirdi, ruha ünvanlanan bəstədi; dinləyirsən, duyğulanırsan. Sənə elə gəlir ki, halay bitər-bitməz uğur yoluna, qələbə yoluna çıxacağıq.

"Horadiz halayı" Vətənə məhəbbət halayıdı, Vətənə sədaqət halayıdı, hünər, cəsarət, rəşadət halayıdı...

Aparıcıların bu və ya digər məqama verdiyi təzə-tər giriş (remarka) təsdiqləyir ki, "Horadiz halayı" "Komandanın əmri üçün yaşayırıq!", "Böyük Qələbəyə aparır bu yol!" deyənlərin halayıdı...

Ruha hopan, milli ruha dönən "Horadiz halayı" Milli Qurtuluş Günündə "Azərbaycan Ordusu Ali Baş Komandanın hər əmrini yerinə yetirməyə hazırdı, torpaqlarımızı işğaldan azad etməyə qadirdi" - deyir. "Halay"ın nəqaratını hamı ifa edir.

Hər kəlmədə çırpınan mətləb, hər mətləbdən dikələn öyüd-nəsihət Dədə sözüdü sanki. Dinləyənlərin düşüncələrini Vətənimizin ruhuna, ruhumuzun vətəninə ad edir. Yaşanılan anların başlanğıcı min illərin o üzündədi, min illərlə yaşayacaq da. Yaşanılacaq min illərin son anı olmayacaq; "Milli qurtuluşdan başlanan yollar" kütləvi vətənpərvərlik tədbirinin üvertürasıdı "Horadiz halayı"...

İri ölçülü monitorda aparıcıların dediklərini görüntülər tamamlayır...

Ulu Öndər xalq şairi Səməd Vurğunun "Azərbayan" şeirinin bir bəndini deyir. 7-8 yaşlı uşaq eşitdiklərini kəlmə-kəlmə, sevgilərlə təkrarlayır; tarixi şəxsiyyətləri həm tanıdan, həm də sevdirən bu tədbir ona görə bunca duyğusaldı, bunca dəyərlidi!..

...Tədbirdə şərtilikdən məharətlə bəhrələnilib; Baba (Xalq artisti Məmmədəli Balayev) Nəvəsiylə mükaliməleşir. Yol haqqında danışır Baba (Xalq), Nəvənin (sabahın əsgərlərinin) "Bu yol hardan başlanır? Bu yol hara aparır? - suallarını cavablandırır. Dədə təmkiniylə, Dədə sözüylə: "...Yolsuz Vətən olmur, oğul. Min illərin o üzündən gəlir bu yol, başlanğıcını ruhumuzdan götürüb. 1993-ün 15 iyununda bu yola bir yol da qoşuldu: Mill Qurtuluş yolu. Xalqın qurtuluş yoludu bu yol, bu yol əbədiyyətə aparacaq!"...

Bir ağsaqqalın duruşu çəkir diqqətimi. Baxışları zirehli maşının üstündə dayanmış əsgərlərimizin baxışlarına çataqlıdı elə bil. Baxır - doymur. Doymur - baxır. Ruhumuzun işığının bir zərrəsinə dönən bu tədbirdə belə duyğusallıqla nə düşünür, nələr düşünür? Horadizin işğalınımı? Horadizin işğaldan azad edilməsinimi? O döyüşdə, bu döyüşdə şəhid olanlarımı? Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamıyla Horadizin yenidən necə qurulmasınımı? Aprel döyüşlərinimi?..

- Horadizi Heydər Əliyev azad etdi, bayaq oxunan mahnıda ("Horadiz halayı" nəzərdə tutulur - R.H.) deyildiyi kimi, kül altından İlham Əliyev dirçəltdi. Bunları Milli Qurtuluş Günü gətirdi. Qurtuluş Gününün gətirdiklərini - əsgərlərimizi göstərir - bu oğullar qoruyur, - Səməd kişi belə deyir. Səsindəki sevinc də hiss ediləndi, qürur da...

...Bir nənə əlini gözünün üstünə qoyub əsgərlərin sırasına baxır. Umacaqlı baxışlardı. Onların arasında əzizini görmək istəyir. Görə bilməyəcək. Nəvəsi onların sırasında deyil. Nəvəsi şəhid olub. Bunu bilsə də baxır. Baxır və köks ötürür. "Hamısı mənim nəvələrimdi..." - deyir. Nənənin baxışlarını sezən əsgərlərdən neçəsinin baxışları nənədən üzülmür. Baxışların dediklərini duymaq çətin deyil: "Nəvənin ruhuna gözaydınlığı verəcəyimiz günə az qalıb, nənə. Az qalıb...". Bu səssiz mükaliməlşməni yaradan "Milli qurtuluşdan başlanan yollar" kütləvi vətənpərvərlik tədbiri həm də bu baxımdan dəyərlidi. Bu mükaliməlşmə milli birliyin təzahürüdü, şübhəsiz. Milli Qrtuluş Günü bu birliyin qoruyucusudu. Əbədiyyən belə olacaq...

O nənənin də, o nənənin yaşdaşlarının da baxışları nəvəsi bildiyi əsgərlərə nə deyərdi görəsən? - "Torpağı sevin" - deyərdi. "Vətəni sevin, qoruyun. Qurtuluş gününün qurtardıqlarını qoruyun..."...

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamı ilə Cocuq Mərcanlı yenidən quruldu. Vaxtilə belə bir sərəncam Horadiz üçün verilmişdi; Horadiz şəhərinin timsalında işğaldan azad edəcəyimiz şəhərlərin, Cocuq Mərcanlının timsalında işğaldan azad edəcəyimiz kəndlərin sabahını görürük. Kəndlər işğaldan azad ediləcək, sakinlər doğma ocaqlarına qayıdacaq. Onda şəhidlərin ruhu narahatlıqdan qurtaracaq...

Bir məqam diqqəti çəkir: tədbirdə minaaxtaranlar görünür. Bu rəmz işğaldan azad ediləcəyimiz ərazilərdə aparılacaq işlərin başlanğıcının görüntü-təsviridi; Azərbaycan əsgəri torpaqları azad edəcək, yeni qurulacaq yaşayış məntəqələrində normal həyat bərpa olunacaq. "Milli qurtuluşdan başlanan yollar" bizi həm qələbəyə aparır, həm də quruculuq işlərinə. Bugünkü tədbir həm də bu inamın təsdiqinin tədbiridi, həm də belə bir tarixi gündə!..

Abdulla Qurbaninin dediyi misralar tədbir iştirakçılarının ürəyini coşdurur; misralar Böyük Qələbənin uzaqda olmadığının təsdiqidi. Lələtəpəyə xitabən deyilən misraların inam işığı baxışlara hopur:

*İnam zirvəsisən Lələtəpəmiz,*
*Səni bayraq edən qollar görünür.*
*Sağın da, solun da yollardı...*
*Burdan*
*Şuşaya aparan yollar görünür!..*

Əsgər ürəyindən keçəcək o yolların da işığını artırır "Milli qurtuluşdan başlanan yollar". Bu tədbir dövlətçiliyə sədaqətə kökləyir iştirakçıları.

"Milli qurtuluşdan başlanan yollar" bayram tədbiridi, hamını bayram ovqatına kökləyib. Bu bayramın mahiyyətini, dövlətçiliyimizin qorunmasıyla bağlı olduğunu - yaşarlığını yaşadanlar tədbir boyu bir amalın təntənəsinə bağır basır: Azərbaycan var, var olacaq! Azərbaycan dövləti tarixin cığırdaşıdı! "Vətənin mehi ilə, yeli ilə, coşubdaşan seli ilə, tər çiçəyi, gülü ilə vətənləşənlər" bu tədbiri sədaqətə sədaqət tədbiri bilir, şübhəsiz. Qarabağ müharibəsi əlilinin dediyi kəlmələr ürəyimi dağa döndərir: "2016-cı ilin aprelində Azərbaycan əsgərləri-








nin sırasında olmaq istədik. Ehtiyac olmadığına görə icazə vermədilər. Azərbaycan əsgəri gördü ki, duydu ki, xalq ona güvənir. Bu güvənc Böyük Qələbəyə çağırır Azərbaycan əsgərini!"...

H.Aslanov adına Mərkəzi Zabitlər Evinin yaradıcı kollektivinin təqdim etdiyi mahnıların, rəqslərin konül xoşluğuna döndüyünü görmək könül xoşluğu verir.

Vətənpərvərlik mahnılarının ifaçısı Şəmistan Əlizamanlının oxuduğu "And içirik!" - mahnısı stadionu coşdurur. Bu and Vətənə sədaqət andıdı, söndürülmüş ocaqların alışdırılacağına içilən anddı, şəhidlərin gileyli ruhuna gözaydınlığı veriləcəyinə inandırma niyyətidi...

Hələ sıralanmış əsgərlərin əllərindəki "sipərlər" - Vətən qorunur! Hələ təzə Horadizdə doğulan uşaqların, musiqi məktəbinin şagirdlərinin ifası, rəqsləri - varıq, var olacağıq! Hələ "Qarabağ şikəstəsi! " - öz beşiyində də səslənəcək! Hələ rəqs edənlərə qoşulan əsgərlər - ordu xalqın, xalq ordunun dayağıdı! Hələ, ifa edilən mahnıda deyildiyi kimi, nə yaxşı ki, yolu saxlamaq olmur kəlamının xoreoqrafik yozumu! - bu yola inam, etibar, sədaqət, sevgi var! Bunlar da rejissura tapıntısıdı, şübhəsiz...

Zaur Nəğməkarın oxuduğu mahnı da iştirakçılarn könlünə yatır.

İstər Horadiz stadionunun, istərsə də tədbir üçün video süjetlərin hazırlanmasında Gəncə Qarnizonu Zabitlər evinin xidməti də diqqəti çəkir.

Və tədbirin finalı!

"Biz gedirik Qarabağa!" mahnısının müşayiəti ilə Baba (xalq), Nəvə (sabahın əsgərləri), aparıcılar, solistlər, musiqi məktəbinin şagirdləri yeriş edir. Arxalarınca iki zirehli maşın. Bayaqkı maşınlardı. Bayaqkı əli avtomatlı əsgərlərdi, bayaqkı ağsaqqalın diqqətini çəkən igidlərdi - şərti Azərbaycan Ordusu. Elə möhtəşəm görüntüdü ki! Tədbir iştirakçıları bu möhtəşəmliyi o qədər çılğınlıqla alqışlayır ki! Uğur alqışlarıdı, uğur alğışları - xeyir-duasıdı bu. O alqışlara, o alğışlara bütün məmləkət qoşulacaq, şübhəsiz. O alqışlar, o alğışlar üçün yaşamırıqmı? O alqışlar, o alğışlar Vətənin daşına-torpağına düşən nur zərrəsi deyilmi? O alqışlar, o alğışlar son nəfəsimizəcən kəsilməyəcək. Azərbaycan əsgəri Böyük Qələbə günü həmin alqışları daha böyük coşqu ilə Cıdır düzündə də eşidəcək!

"Horadiz halayı"ndan "Qələbə halayı"na nə qalıb ki?..

**Rəşid HÜSEYNOV,**
**əməkdar jurnalist**

AZƏRBAYCAN ORDUSU

# Naxçıvanda Azərbaycan-Türkiyə birgə hərbi təlimləri keçirilib

*Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında imzalanan hərbi əməkdaşlıq haqqında Sazişə əsasən iyunun 12-dən etibarən Naxçıvanda iki ölkənin Silahlı Qüvvələrinin birgə əməliyyat taktiki təlimləri başlanıb.*



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, iyunun 15-də - Milli Qurtuluş Günündə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov, Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov və Türkiyə Respublikası Silahlı Qüvvələrinin mexanikləşdirilmiş briqada komandiri general-mayor Ərcan İlhan birgə əməliyyat taktiki təlimi izləyiblər.

Azərbaycan Respublikası Müdafiə nazirinin müavini - Əlahiddə Ümumqoşun Ordu komandanı general-leytenant Kərəm Mustafayev təlimə hazırlıq barədə Ali Məclisin sədrinə raport verib.

Əməliyyat taktiki təlimin planı ilə tanış olduqdan sonra bildirilib ki, təlimin keçirilməsində məqsəd Azərbaycan və Türkiyə Silahlı Qüvvələrinin şəxsi heyətləri arasında əməliyyatların birgə icra edilməsində uzlaşmış fəaliyyətə nail olunması, qoşunların idarə edilməsində vahid prosedurların işlənib hazırlanması və Əlahiddə Ümumqoşun Ordu ilə müxtəlif güc strukturlarının birgə fəaliyyətinin planlaşdırılmasından ibarətdir. Təlimə Əlahiddə Ümumqoşun Ordunun birləşmə və hissələri ilə yanaşı, Əlahiddə Sərhəd Diviziyasının, Əlahiddə Əməliyyat Briqadasının və Mülki Müdafiə Alayının bölmələrinin ümumilikdə 5 minə yaxın şəxsi heyəti, 250-dən artıq zirehli və 500-ə yaxın avtomobil texnikası cəlb edilib.

Üç mərhələdə keçirilən təlimin birinci mərhələsində Əlahiddə Ümumqoşun Ordunun, digər güc strukturlarının və Türkiyə Respublikası Silahlı Qüvvələrinin bölmələri tam döyüşə hazırolma vəziyyətinə gətirilərək düşmənin dayandırılması və əks-zərbə əməliyyatı planlaşdırılması aparılıb. İkinci mərhələdə əks-zərbənin endirilməsi, düşmənin darmadağın edilməsi və itirilmiş vəziyyətin əlverişli hədlər üzrə bərpa edilməsi, üçüncü mərhələdə isə əks-hücumu davam etdirərək, düşmən ehtiyatlarının məhv edilməsinin başa çatdırılması və əlverişli ərazi sahələrinin nəzarət altına alınması tapşırıqları icra olunub.



Təlimin ssenarisinə əsasən, düşmənin fəaliyyətinin izlənilməsi, atəş vasitələrinin, ehtiyatlarının və vacib obyektlərinin koordinatlarının dəqiq təyin olunması məqsədilə pilotsuz uçuş aparatları və vizual müşahidə vasitələrindən istifadə etməklə kəşfiyyat bölmələri fəaliyyətə başlayıb. Naxçıvan Əlahiddə Sərhəd Diviziyasının Çevik Hərəkət Taboru hücum əməliyyatını davam etdirməyə qüvvəsi yetməyən düşmənin dövlət sərhədi boyu keçirdiyi kəşfiyyat-diversiya fəaliyyətlərinə qarşı tədbirlər görərək dövlət sərhədini möhkəmləndirib, hava məkanını pozmuş düşmən aviasiyası hava hücumundan müdafiə bölmələrinin dəqiq zərbələri ilə məhv edilib.

Yüksək dəqiqlikli atəş idarəetmə sistemləri ilə təchiz edilmiş Əlahiddə Ümumqoşun Ordunun artilleriya birləşmə, hissə və bölmələri düşmənin toplanma rayonlarına çıxarılmış bölmələrinə, aviasiya eskadriləyasının atəş-dəstək vertolyotları isə düşmənin ehtiyatlarına və zirehli obyektlərinə atəş zərbələri endiriblər.

Müasir raket, reaktiv və artilleriya sistemlərinin cəlb edilməsi ilə əks-zərbə planına uyğun olaraq ordu artilleriyası atəş hazırlığına başlayaraq düşmənin müdafiə dərinliyində yerləşən vacib dövlət və hərbi obyektlərinə, silah sistemlərinə, artilleriya və idarəetmə məntəqələrinə zərbələr vurub. Tanklar, piyadanın döyüş maşınları və tank əleyhinə vasitələrlə düşmənin ön xəttində və yaxın dərinliyində yerləşən zirehli texnikaları və "TOS-1A" müasir ağır odatan sistemi ilə onun taqım dayaq məntəqələri, artilleriya və minaatan batareyaların atəş mövqeləri məhv edilib, Əlahiddə Ümumqoşun Ordu Komandanı əldə edilmiş atəş üstünlüyündən istifadə edərək düşmənə qətiyyətli zərbə endirmək məqsədilə birləşmə və hissələrin hücuma keçməsi üçün əmr verib.

Təlimin gedişində təmir-təxliyə, maddi-texniki və tibbi təminat tapşırıqları da uğurla yerinə yetirilib.

Dağlıq ərazidə, texnikanın hərəkətinin məhdud olduğu rayonlarda atəş dəstəyinin fasiləsiz təmin edilməsi üçün artilleriya bölmələrinə "Mİ-35M" vertolyotlarının hava növbətçiliyi ilə "Mİ-17V" tipli nəqliyyat vertolyotlarından paraşütlə döyüş sursatı atılıb. Bölmələrin hücumunun dərinliyə sürətlə inkişaf etdirilməsi üçün taktiki və hava desantı təyin olunmuş rayonlara vertolyotlar vasitəsilə endirilib.

Təlimə cəlb edilmiş birləşmə və hissələr qarşıya qoyulmuş tapşırıqları uğurla yerinə yetirərək hədəf və maketlərin 90 faizindən çoxunu məhv edib və düşmən üzərində qələbə qazanıblar.

Sonda hərbi vertolyotlar Azərbaycan və Türkiyə bayraqlarını səmada nümayiş etdirib, ümummilli lider Heydər Əliyevin "Hər bir insan üçün onun milli mənsubiyyəti onun qürur mənbəyidir. Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən Azərbaycanlıyam" kəlamı səslənib.

Ali Məclisin sədri Vasif Talıbov Əlahiddə Ümumqoşun Ordunun silahlanmasına daxil olmuş yeni silah, texniki avadanlıqlar və pilotsuz uçuş aparatlarına baxıb.

Azərbaycan Respublikası Müdafiə nazirinin müavini - Əlahiddə Ümumqoşun Ordu komandanı, general-leytenant Kərəm Mustafayev təlimin başa çatması barədə raport verdikdən sonra təlimdə iştirak edən şəxsi heyətlə görüş olub.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov əsgər, zabit və tədbir iştirakçılarını Azərbaycan və Türkiyə Silahlı Qüvvələrinin birgə təlimlərinin başa çatması və Azərbaycan xalqının Milli Qurtuluş bayramı münasibətilə təbrik edərək deyib: "Bu gün Milli Qurtuluşun bəhrələri özünü Azərbaycan xalqının həyatının bütün sahələrində, o cümlədən ordu quruculuğunda da göstərir. Dövlətin müstəqilliyi onun ordusunun qüdrətindən asılıdır. O ölkədə güclü ordu yaradıla bilər ki, orada sabitlik və iqtisadi inkişaf olsun. Milli Qurtuluş Günündən başlanan sabitlik və həyata keçirilən sosial-iqtisadi islahatlar Azərbaycan ordusunu daha da qüdrətləndirmişdir".

Ali Məclisin sədri deyib: "Bu gün müstəqil Azərbaycanda ordu quruculuğu sahəsində ardıcıl tədbirlər görülür. Ölkə Prezidentinin rəhbərliyi ilə ordumuz inkişaf edərək ən müasir səviyyəyə gəlib çatmışdır. Ən yeni silah və texnika ilə təminat, vətənpərvər və peşəkar şəxsi heyət, hərbi qulluqçulara davamlı qayğı Azərbaycan ordusunun reallıqlarıdır. Azərbaycan Silahlı Qüvvələrinin Naxçıvan Muxtar Respublikası ərazisindəki ordu və birləşmələri də mühüm təşkilatlanma yolu keçərək daha da möhkəmlənmişdir. Azərbaycan xalqının Milli Qurtuluş tarixinin mühüm bəhrələrindən biri də Azərbaycan-Türkiyə birliyinin daha da möhkəmlənməsidir. 1993-cü ildə xalqın təkidli tələbi ilə ali hakimiyyətə qayıdan ümummilli lider Heydər Əliyev Azərbaycan-Türkiyə münasibətlərini bir millətin iki dövləti səviyyəsinə qaldırmışdır. Hərbi əməkdaşlıq haqqında Sazişə əsasən keçirilən hərbi təlimlər bu birliyin, dostluğumuzun və qardaşlığımızın daha bir parlaq ifadəsi oldu.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Azərbaycan-Türkiyə birliyinin strateji əhəmiyyətini yüksək qiymətləndirərək demişdir: "Bizim gücümüz bizim birliyimizdədir. Türkiyənin gücü Azərbaycanın gücü, Azərbaycanın gücü Türkiyənin gücüdür". Birgə hərbi təlim bir daha təsdiq etdi ki, ordunun gücü yalnız silah və texniki təminatla ölçülmür. Ordunun gücü həm də onun sıralarında xidmət edən şəxsi heyətin ruh yüksəkliyi, möhkəm iradəsi, vətənpərvərliyi və peşəkarlığı ilə ölçülür. Hərbi təlimlərdən çıxan nəticə budur ki, Azərbaycan və Türkiyə Ordusu peşəkar olduğu qədər də vətənpərvərdir. Şəxsi heyətlərimiz ən yüksək mənəvi keyfiyyətlərə malikdirlər. Bu, bizim ən böyük nailiyyətimizdir".



Ali Məclisin sədri hərbi təlimin bütün iştirakçılarını və təşkilatçılarını tapşırıqların uğurlu icrası münasibətilə təbrik edib, şəxsi heyətlərə təşəkkürünü bildirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin müavini - Əlahiddə Ümumqoşun Ordu komandanı, general-leytenant Kərəm Mustafayev çıxış edərək deyib ki, Əlahiddə Ümumqoşun Ordu təlimdə tam döyüşə hazır vəziyyətə gətirilib, səfərbərlik planları uğurla yerinə yetirilib, hərbi hissələr döyüş uzlaşması keçib. Keçirilən birgə əməliyyat taktiki təlim qardaş Türkiyə Silahlı Qüvvələri ilə hərbi sahədə genişmiqyaslı əməkdaşlığın bariz nümunəsidir. Təlimdə qarşıya qoyulan məqsədə nail olunması bir daha təsdiq etdi ki, Əlahiddə Ümumqoşun Ordu Naxçıvanın dayanıqlı və etibarlı müdafiəsinə tam hazırdır.

Türkiyə Respublikası Silahlı Qüvvələrinin mexanikləşdirilmiş briqada komandiri, general-mayor Ərcan İlhan Milli Qurtuluş Günü münasibətilə təbriklərini çatdıraraq deyib ki, böyük öndərlərimiz Heydər Əliyevin "Bir millət, iki dövlət" və Mustafa Kamal Atatürkün "Yurdda sülh, cahanda sülh" şüarı bu gün keçirilən birgə əməliyyat taktiki təlimdə birliyimizin və bərabərliyimizin ifadəsinə çevrildi. Hər iki dövlətin silahlı qüvvələrinin şəxsi heyəti verilən döyüş tapşırıqlarını peşəkarlıqla yerinə yetirməklə, eyni zamanda, iki ordu arasındakı əməkdaşlığın yüksək səviyyədə olduğunu nümayiş etdirdi. Ərcan İlhan birgə hərbi təlimlərin təşkilində və yerinə yetirilməsində əməyi olanlara minnətdarlıq edib.

Azərbaycan Respublikasının Müdafiə naziri, general-polkovnik Zakir Həsənov təlimdə qarşıya qoyulan vəzifələri uğurla yerinə yetirdiklərinə görə Azərbaycan və Türkiyə Silahlı Qüvvələrinin şəxsi heyətlərini təbrik edərək deyib ki, Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə ordu quruculuğu sahəsində ardıcıl tədbirlər görülür. Bu sahədə görülən işlərin tərkib hissəsi olaraq Naxçıvan Muxtar Respublikasının müdafiə potensialının gücləndirilməsinə xüsusi diqqət yetirilir. Hazırda Əlahiddə Ümumqoşun Ordu yüksək döyüş qabiliyyətinə malikdir və düşmənə layiqli cavab verməyə qadirdir. Düşmən bilməlidir ki, Naxçıvanın müdafiəsində ən peşəkar ordu dayanıb. Müdafiə naziri Naxçıvanda ordu quruculuğu sahəsində həyata keçirilən tədbirlərə görə Ali Məclisin sədrinə minnətdarlıq edib.

Ali Məclisin sədri təlimdə fərqlənən zabit, gizir və əsgərləri qiymətli hədiyyələrlə mükafatlandırıb.

Sonda zabit, gizir və əsgərlər şəxsi heyət arasındakı birlik və bərabərliyin ifadəsi olan "Hamı bir nəfər, bir nəfər hamı üçün" şüarını səsləndiriblər.

*Hərbi təhsil*

# “Azərbaycanda hərbi təhsil sistemi müasir tələblər səviyyəsindədir”

## Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin məzunlarının növbəti buraxılışı olub



Şıltaq yaz günləri isti yay ayları ilə əvəzlənmək ərəfəsindədi. Qızmar günəş ətrafa hakim kəsilib. Mənə belə gəlir ki, Günəş, Azərbaycan Ali Hərbi Məktəbinin sıra meydanında düzülmüş kursantların baxışlarından, övladlarının gələcəyin zabiti olması sevincini yaşayan valideynlərin qəlbindən istilik alır... Bu gün toplaşanların baxışlarından nə qədər həyəcan keçirdiklərini, həyəcan qarışıq sevinclə söhbət etdiklərini hiss edirəm. Nə deyirlərsə, baxışlarıyla deyirlər, gözləriylə danışırlar. Bu gün gözlərin kəlmələşməsində "Yolunuz uğurlu, arzularınız çin olsun!" arzusunu duymaq çətin deyil.

Təhsil ocağına daxil olanda ilk tanış olduğum məzun atası Vüqar Bayramovun gözlərində də eyni mətləbi hiss edirəm. Oğul atasının yolunu davam etdirəcək.

Hərbçi ailəsində doğulan Telman bu peşəyə öz istəyi ilə yiyələnir, qarşısına qoyulan tapşırığı layiqincə yerinə yetirir, - deyə Qazax rayon Yuxarı Salahlı kənd sakini Vüqar Bayramov sevincini birnəfəsə bölüşür:

- Oğlum 7 ildi hərbi təhsil alır. 3 il ulu öndər Heydər Əliyevin əsasını qoyduğu Cəmşid Naxçıvanski adına Hərbi Liseydə, 4 il də burada təhsil alan oğluma layiqli vətəndaş, hər zaman fərqlənənlər sırasında olmağı məsləhət görmüşəm. Nümunəvi zabit kimi xidmət edəcəyinə də inanıram. İnanıram ki, Ümummilli Liderin adını daşıyan bir ali məktəbin məzunu, dövlətinə sədaqətlə xidmət edən ehtiyatda olan hərbçinin övladı, təhsil almasında əvəzsiz zəhməti olan müəllimlərinin, Vətənin bütövlüyü uğrunda canını fəda etmiş hərbi qulluqçuların davamçısı olan bu günün leytenantı valideynlərinin etimadını doğruldacaq.



Bütün əlamətlərinə görə ötən günlərdən fərqlənən sevinc dolu bir gün yaşanır. Bu günün sevinci ötən günlərdən daha çox fərqlənir, daha çox xatirə yaşadır. Bu günü fərqləndirən bir amil var - Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində 2017-ci il buraxılışına həsr olunmuş təntənəli mərasim keçirilir.

Mərasim Ali Hərbi Məktəbin rəisi polkovnik Füzuli Salahovun Silahlı Qüvvələrin Baş Qərargah rəisinin müavini - Döyüş Hazırlığı və Hərbi Təhsil Baş İdarəsinin rəisi, general-leytenant Nizam Osmanovu qarşılaması ilə başlayır.

General-leytenant Nizam Osmanov və digər rəhbər şəxslər əvvəlcə ümummilli liderimiz Heydər Əliyevin təhsil ocağının həyətində ucaldılmış abidəsini ziyarət edirlər. Abidənin önünə gül-çiçək dəstələri qoyurlar.

Təhsil ocağının sıra meydanında davam edən mərasimdə Müdafiə Nazirliyinin yüksək rütbəli zabitləri, ictimaiyyət nümayəndələri, veteranlar, məzunların yaxınları və xarici ölkələrin Azərbaycandakı səfirliklərinin nümayəndələri iştirak edirdilər.

Ümummilli lider Heydər Əliyevin, Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunur.

Orkestrin və kursantların ifasında Azərbaycanın Dövlət himni səslənir.

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin müavini - Döyüş Hazırlığı və Hərbi Təhsil Baş İdarəsinin rəisi general-leytenant Nizam Osmanov əlamətdar gün münasibətilə kursantları və onların valideynlərini Müdafiə Nazirliyinin rəhbərliyi adından təbrik edərək bildirir ki, ümummilli lider Heydər Əliyev siyasətinin layiqli davamçısı olan Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin ordumuza göstərdiyi diqqət və qayğı nəticəsində Silahlı Qüvvələrimiz sürətlə inkişaf edir. “Bu gün ordu quruculuğu dövlətimizin başçısının diqqət mərkəzindədir. Ordunun döyüş hazırlığı səviyyəsinin artırılması, onun müasir hərbi texnika və vasitələrlə gücləndirilməsi, hərbi qulluqçuların sosial-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində müvafiq tədbirlər həyata keçirilir”.

Natiq çıxışı zamanı dedi ki, Müdafiə Nazirliyi rəhbərliyinin keçirdiyi tədbirlər və gördüyü işlər nəticəsində Azərbaycan Silahlı Qüvvələrinin təhsil sistemi gündən-günə təkmilləşir və inkişaf edir. “Heydər Əliyev adına Ali Hərbi Məktəbdə tədris sisteminin təkmilləşdirilməsi üçün aparılan islahatlar müsbət nəticələr verməkdədir. Məktəbin maddi-tədris bazası bütün müasir tələblərə tam cavab verir. Burada peşəkar vətənpərvər kadrların hazırlanması üçün hər cür şərait yaradılıb. Biz bundan sonra da bütün imkanlardan istifadə edib Ali Hərbi Məktəbin tədris sisteminin təkmilləşdirilməsi üçün işləri davam etdirəcəyik. Hərbi təhsil sisteminin daim inkişaf etdirilməsi ordumuzun yüksəkixtisaslı zabit kadrlarla təmin olunmasının qarantıdır. Burada xidmət edən hər bir zabit, gizir, həmçinin çalışan müəllimlər və təhsil alan kursantlar dövlətin adına layiq olmaqla üzərlərinə düşən vəzifələri layiqincə yerinə yetirməlidirlər.”

"Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli Silahlı Qüvvələrin hansı vəziyyətdə olmasından asılıdır. Bunun üçün siz Silahlı Qüvvələrin sıralarına gənc zabitlər kimi daxil olmaqla ordumuza yeni nəfəs, yeni ruh, döyüş əzmi gətirməlisiniz. Düşmən hiss etməlidir ki, siz hər sahədə həmişə ondan üstünsünüz. Vətənə sədaqətiniz, ana torpağa, ailəyə bağlılığınız, xalqımıza və dövlətimizə məhəbbətiniz sonsuzdur. Bu gün Azərbaycanın güclü və sarsılmaz ordusu var. 2016-cı ilin aprel ayında Azərbaycan Silahlı Qüvvələri düşmən təxribatının qarşısını alarkən düşmənə sarsıdıcı zərbələr endirib. Bu, ordumuzun gücünü bir daha nümayiş etdirdi. Aprel döyüşləri nəticəsində işğaldan azad edilən ərazilərimizdə bu gün Azərbaycan bayrağı dalğalanır. Bu döyüşlər onu göstərir ki, Azərbaycan xalqı və dövləti heç vaxt işğalla barışmayacaq, öz ərazi bütövlüyünü nəyin bahasına olursa-olsun bərpa edəcək", - deyə N.Osmanov bildirdi.



General-leytenant Nizam Osmanov Silahlı Qüvvələrimizin sıralarına daxil olan gənc zabitləri diplom və leytenant rütbəsi almaları münasibətilə təbrik edir, onlara Azərbaycanın gələcəyi, ordumuzun, dövlətçiliyimizin müdafiə qüdrətinin daha da yüksəldilməsi naminə xidmətlərində uğurlar arzulayır.

Ali Hərbi Məktəbi fərqlənmə ilə bitirən məzunlara diplomlar və qiymətli hədiyyələr təqdim olunur. Onlar üzərində ulduz və aypara təsviri olan emblemləri rəmzi yaş kötüklərinə vururlar. Bu proseduru Silahlı Qüvvələrin sıralarına daxil olanların ölkəsinə və millətinə Vətən sevgisi ilə yerinə yetirəcək andı hesab edirəm - Vətən andı.

Məktəbin bayrağının təhvili-qəbulu da çox duyğulandırıcıdır.

Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin parçası tarixin nişanəsi, parıltısı zəfərlərin işığı, yazısı qəhrəmanlıq və şücaətə çağırış, ağacı dözüm, baftası şərəf və məsuliyyət rəmzi olan, daim yüksəklərdə tutulmağa layiq döyüş bayrağı bu ilin məzunlarına təhvil verilir.

Əlvida kursant, xoş gəldin leytenant...

Orkestrin və kursantların ifasında məktəbin marşı səsləndilir. Kursantlar təntənəli hərbi marşın sədaları altında tribunanın önündən keçirlər. Möhtəşəm keçiddi. Bu keçidi bir qətiyyətin işığı bilirəm, biz - Mübarizlərin, Samidlərin, Çingizlərin... davamçılarıyıq.

Məzun Peyman Əsədzadənin söhbət zamanı söylədikləri də məni yuxarıdakı fikirləri əminliklə söyləməyə əsas verir: "Əmim Baba Əsədov torpaqlarımızın azadlığı uğrunda Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndində həlak olub. Onun yolu ilə gedəcəyimə söz verdim. Bu gün məqsədimə aparacaq yoldayam. Bu yolda zəhməti olan hər kəsə, əsasən də valideynlərimə və müəllimlərimə təşəkkürümü bildirirəm. Xalqımıza Qələbə sevinci yaşadacağıq. Qalib ordunun zabiti kimi xalqımızı müjdələyəcəyik."

Tədbir başa çatır.

Bir daha əmin oluram ki, Günəş bəlkə də bu anlarda hərarətini buradakı insanların baxışlarından, qəlbindən alır...

**Kapitan**
**Məhəmməd ƏLİYEV,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

# Mühəndis istehkam bölmələri ilə taktiki-xüsusi təlim keçirilib





*Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi plana əsasən Silahlı Qüvvələrin mühəndis-istehkam birləşmələrinin taktiki-xüsusi təlimi keçirilib.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, təlimlərdə birləşmələrin döyüşə hazır vəziyyətə gətirilməsi, cəmləşmə rayonuna marş, ərazidə yerləşmə, hücum əməliyyatında mühəndis təminatına hazırlıq və onun yerinə yetirilməsi üzrə tapşırıqlar məşq etdirilib.

Təlim rəhbərləri və komandanlıq tərəfindən şəxsi heyətin praktiki hazırlığı, bacarıq və vərdişləri yüksək qiymətləndirilib.

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Ermənistanın təxribatı nəticəsində hərbi qulluqçumuz şəhid olub

Ermənistan silahlı qüvvələri bölmələrinin törətdiyi təxribatın qarşısı alınarkən Silahlı Qüvvələrimizin hərbi qulluqçusu əsgər Şahvələdov Sultan Niyaz oğlu şəhid olub.

Müdafiə Nazirliyinin rəhbərliyi şəhidin əzizlərinə və yaxınlarına dərin hüznlə başsağlığı verir və səbr diləyir!

## Silahlı Qüvvələrin genişmiqyaslı əməliyyat-taktiki təlimləri keçiriləcək

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin təsdiq etdiyi plana əsasən iyun ayının 19-dan döyüş şəraitinə uyğunlaşdırılmış vəziyyətdə qoşunların döyüşə hazırolma qabiliyyəti, qüvvə və vasitələrin idarə olunmasının təşkili, onların qarşılıqlı fəaliyyətinin yoxlanılması məqsədilə genişmiqyaslı əməliyyat-taktiki təlimləri keçiriləcək.

Təlimlərə 23 min nəfərədək şəxsi heyət, 120-dək tank və zirehli texnika, 180-dək müxtəlif çaplı raket və artilleriya qurğusu, reaktiv yaylım atəş sistemi və minaatan, 30-dək müxtəlif təyinatlı döyüş aviasiyası, eləcə də yeni növ radioelektron kəşfiyyat vasitələri və pilotsuz uçuş aparatları cəlb olunacaq.

Təlimlər iyunun 24-dək davam edəcək.

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

__16 iyun 2017-ci il.__

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan və piyadanın döyüş maşınından (1 mərmi) da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 129 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonunun Dovex kəndində və adsız yüksəkliklərdə, İcevan rayonunun Paravakar kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Ağstafa rayonunun Köhnəqışlaq, Qazax rayonunun Kəmərli, Qaymaqlı kəndlərində və adsız yüksəkliklərdə, Berd rayonunun Mosesqex, Çinari və Ayqedzor kəndlərində yerləşən mövqelərdən Tovuz rayonunun Ağdam, Koxanəbi və Muncuqlu kəndlərində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Zamanlı kəndində yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Çiləbürt, Ağdam rayonunun Tağıbəyli, Şıxlar, Baş Qərvənd, Cəvahirli, Qaraqaşlı, Sarıcalı, Novruzlu, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Aşağı Veysəlli, Qərvənd, Qaraxanbəyli, Aşağı Seyidəhmədli, Qorqan, Kürdlər, Cəbrayıl rayonunun Nüzgar və Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam, Xocavənd, Füzuli və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

# Xarici ölkələrin Azərbaycandakı hərbi attaşeləri hərbi hissəni ziyarət ediblər



Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi illik fəaliyyət planına əsasən, ölkəmizdə akkreditə olunmuş xarici dövlətlərin hərbi attaşelərinin iyunun 14-də hərbi hissəyə tanışlıq səfəri təşkil olunub.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, səfər çərçivəsində qonaqlara hərbi hissə haqqında brifinq verilib, şəxsi heyət üçün yaradılan şərait və döyüş texnikası ilə tanışlıq keçirilib.

16 dövləti təmsil edən hərbi attaşelik aparatlarının 21 nümayəndəsi ziyarətin yüksək səviyyədə təşkilinə görə Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlıqlarını bildiriblər.

# Dünyagöz Xəstəxanalar Qrupunun xeyirxah missiyası

**(Əvvəli 3-cü səhifədə)**

- Ölkəmizdə öncə Dünyagöz Xəstəxanalar Qrupunun Azərbaycanda möhtəşəm bir filialı açılıb, - Müdafiə Nazirliyi Tibb Baş İdarəsinin rəisi tibb xidməti general-mayoru Natiq Əliyev bildirdi. - İndi isə Qrupun mobil göz klinikası Silahlı Qüvvələrimizdə bu xeyirxah aksiyaya başlayır. Bütün bunlar Türkiyə ilə Azərbaycan arasında qardaşlığın bariz bir nümunəsidir. Ulu öndər Heydər Əliyevin dediyi kimi, biz bir millət, iki dövlətik. Azərbaycan Prezidenti cənab İlham Əliyevin Türkiyə və Azərbaycan qardaşlığının daha da möhkəmləndirilməsi istiqamətində atdığı addımlar hər iki dövləti daha da yaxınlaşdırır. Bu xeyirxah aksiya Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təşəbbüsü ilə gerçəkləşir. Mobil göz klinikası ən müasir avadanlıqlarla təchiz edilib. Qeyd edim ki, bizim Baş Klinik Hospitalda, digər tibb müəssisələrimizdə hər cür şərait yaradılıb, hərbi qulluqçuların müayinə və müalicəsi üçün hər bir imkan var. Həm savadlı tibb kadrlarımız var, həm də dövlətimiz müasir avadanlıqlarla tibb müəssisələrimizi təchiz edib. Mobil göz klinikasının bu aksiyası humanitar bir addımdır, Azərbaycan Silahlı Qüvvələrinə qardaş Türkiyənin xeyirxah dəstəyidir. Bu klinika hərbi qulluqçuları, onların ailə üzvlərini, hətta hərbi hissələrdə çalışan mülki işçiləri, şəhid ailələrinin üzvlərini bizim mütəxəssislərlə birgə müayinə və imkan daxilində müalicə edəcəklər, ehtiyacı olanlara optik eynəklər bağışlayacaqlar. Hesab edirəm ki, bu qürurverici bir hadisədir. İki qardaş ölkənin bir-birinə doğma münasibətinin parlaq təzahürüdür.

Dünyagöz Xəstəxanalar Qrupu yönətim kurulunun nümayəndəsi, ehtiyatda olan general Zəkəriyyə Öztürk də ürək sözlərini bildirdi:

- Azərbaycanlılar bizim can qardaşlarımızdır. Cəbhə bölgəsində və digər ərazilərdə xidmət aparan hərbi qulluqçular mobil göz klinikasının xidmətindən yararlanacaqlar. Eyni zamanda ehtiyacı olan digər mülki vətəndaşlar da göz müayinəsindən keçiriləcəklər. Bizim üçün Azərbaycanda bu xidməti gerçəkləşdirmək şərəfdir. Bu fürsəti bizə yaratdığı üçün Müdafiə naziri general-polkovnik Zakir Həsənova minnətdarlığımızı bildiririk.

Açılış mərasimi başa çatdıqda ilk müayinələr aparıldı. Öncə klinikanın həkimləri Müdafiə Nazirliyi Tibb Baş İdarəsinin rəisi tibb xidməti general-mayoru Natiq Əliyevin gözlərini müayinə etdilər. İdarə rəisi müayinədən razılığını ifadə etdi. Bundan sonra mobil göz klinikası birbaşa hərbi hissələrə yola düşdü və bu gündən öz xeyirxah missiyasını yerinə yetirəcək. Təxminən bir ay müddətində Silahlı Qüvvələrimizin hərbi hissələrində zabit, gizir və əsgərlərin gözlərinin müayinə və müalicəsi aparılacaq.

**Əbülfət QASIMOV,**
**"Azərbaycan Ordusu"**

| Məsul katib | Telefonlar | Ünvanımız | Növbətçi | Qəzetin hesabı | | |
|---|---|---|---|---|---|---|
| polkovnik-leytenant İlham BEHBUDOV | Baş redaktor: (012) 510-71-97 (faks); Baş redaktorun müavini: (012) 510-64-27; Məsul katib: (012) 510-71-98 Məktublar şöbəsi: (012) 510-64-28; | Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi | Lalə HÜSEYNOVA | Nərimanov Rayon Xəzinədarlığı Kod: 200189 VÖEN: 1500428611 | Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır. Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz. | Lisenziya № 361 Sifariş № 265 Nüsxə 4650 |